**Fokusu müəyyən edin.** Fokus – niyə sizin xəbər oxucu üçün vacibdir, auditoriya bizim mətni niyə oxumalıdır. Seçdiyiniz fokus xəbər yazmaq üçün sizə lazım olacaq faktları müəyyən edəcək.

## Bu xəbər oxucu üçün niyə vacib ola bilər?

**1.** Məişət tullantıları zavodu sağlamlıq və rifah üçün təhlükə kimi qavranılır.

**2.** Zavodun hansı ərazidə tikilməsi barədə müzakirə iki il çəkib.

**3.** Evləri zavodun tikiləcəyi ərazidə qalan insanlar özlərini təhqir olunmuş hiss edə bilər, belə hesab edər ki, onlarla ədalətsiz davranıblar.

**Hər üç səbəbi özündə birləşdirən formul: Ətrafda evlərin və bağların olmasına baxmayaraq, həmin lənətə gəlmiş zavodu Məmmədli kəndində tikməyi qərara alıblar.**

**«Həmin lənətə gəlmiş zavod»** – yəni faktlarla göstərməliyik ki, zavoda münasibət birmənalı deyil və onun tikintisi uzun müddət müzakirə mövzusu olub.

**«Məmmədli kəndində tikməyi qərara alıblar»** – yəni qərarı kim verib, nə qərar verib, niyə qərar verib, nə qədər qəti qərardır və zavod harada tikiləcək.

**«Ətrafda evlərin və bağların olmasına baxmayaraq»** – yəni, gələcək tikinti meydançası ətrafında nələrin yerləşdiyi barəsində məlumat verməliyik. Nə qədər ev var, bağ var, və s.